**UOT** 34(091)

**Mirzə MƏMMƏDOV**
*DİN-in Polis Akademiyası*
*Dövlət və hüquq nəzəriyyəsi kafedrasının müəllimi,*
*polis baş leytenantı*
DOI: https://doi.org/10.62130/TCFJ7707

# MƏNZİL TOXUNULMAZLIĞI İLƏ BAĞLI HÜQUQ MÜNASİBƏTLƏRİNİN TARIXİ İNKİŞAFI

**XÜLASƏ**

*Məqalədə mənzil toxunulmazlığı ilə əlaqədar münasibətlərin tarixi inkişafı, xüsusiyyətləri və müxtəlif dövrlərdəki problemləri tədqiq edilməklə yekunda aidiyyəti sahənin inkişafı və mənzil anlayışının konkretləşdirilməsi barədə təkliflər verilmiş və ümumi vəziyyət tədqiq edilmişdir. Araşdırma zamanı mənzil toxunulmazlığı barədə münasibətlər qədim dövrdən hazırkı dövrə qədər ətraflı təhlil edilmiş, aidiyyəti dövlətlərin bu sahədəki normativ sistemlərinə və tənzimləmələrinə yer verilmiş və bu istiqamətdə dövlətin, fiziki və hüquqi şəxslərin maraqlarının qorunması ilə bağlı yaranan münasibətlər nəzəri olaraq şərh edilmişdir. Həmçinin mövzuda sözügedən münasibətlərin tərkib ünsürləri əlaqəli qanunvericilik aktları və nəzəri yanaşmalarla təhlil edilərək, müasir dövrdəki tendensiyalar göstərilmişdir.*

***Açar sözlər:*** *Azərbaycan Respublikasının Konstitusiyası, mənzil toxunulmazlığı hüququ, yaşayış sahəsi, iqtisadi münasibətlər, şəxsi və ailə həyatının mühafizəsi*

Məlum olduğu kimi, beynəlxalq hüququn tərkib hissəsi olan fundamental hüquq və azadlıqlar demokratik və hüquqi vətəndaş cəmiyyətinin formalaşmasında əsas rol oynayır. Sözügedən hüquq və azadlıqlar beynəlxalq sənədlərdə prinsiplər kimi qeyd edilsə də, sonradan dövlətlər tərəfindən ratifikasiya edildikdən sonra aidiyyəti qanunvericilik aktlarına implimentasiya edilməklə uyğunlaşdırılır və bir sıra hallarda bir rəhbər müddəadan bir neçə normanın yaradılması hallarına da rast gəlinir. Demokratik və təhlükəsiz cəmiyyətin varlığını şərtləndirən əsas hüquqlardan biri də şəxsi hüquq və azadlıqların tərkibinə daxil olan toxunulmazlıq hüququdur [5, s. 156].

Azərbaycan Respublikasının 12.11.1995-ci il tarixində qəbul edilmiş və həmin ilin 27.11.1995-ci il tarixində qüvvəyə minən Konstitusiyasının 2-ci bölməsinin 3-cü fəslinə əsasən, mənzil toxunulmazlığı əsas hüquqlardan biri hesab edilir və ayrıca maddə ilə təsbit edilir. Bununla belə istər Azərbaycanda, istər şəriətdə, istərsə də roman-german hüquq sisteminə daxil olan digər dövlətlərdə bu hüququn müstəqil və ya başqa hüquqların tərkibində müəyyən edilməsi tarixən müxtəlif mərhələlərdən keçmişdir [1, s. 25]. Belə ki, mənzil toxunulmazlığı ilə əlaqədar hüquq münasibətlərinin inkişafı qədim tarixə malikdir. Bu tarixə diqqət yetirdiyimiz zaman “mənzil” anlayışının “yaşayış sahəsi”ni, “yaşayış yeri”ni ifadələrində və “ev”, “məskən” və ya “yuva” sözlərində ehtiva edildiyini görə bilərik.

İlk dəfə olaraq hüquq münasibətləri çərçivəsində yaşayış sahəsi (ev) toxunulmazlığı hüququ antik Romada tanınmışdır. Eramızdan əvvəl 753-cü ildə Qədim Roma dövləti qurulduqdan sonra vətəndaş cəmiyyətinin formalaşması üçün zəruri addımlar atıldı. Həmin dövrdə görülən önəmli işlərdən biri də cəmiyyətin idarəolunması üçün normaların müəyyən edilməsi idi. İlk dövrlərdə sözügedən normalar adətlərə əsaslanırdı və ümumi hüquq normaları adı altında inkişaf etmişdir. Sözügedən normaların əsas qayələrindən biri də Roma vətəndaşlarının mənafelərinin və imtiyazlarının qorunması idi. Qeyd edilən dövrdə qəbul edilmiş və konkret normalarla tənzimlənməyən

ictimai münasibətlərə adət hüquq normalarının şamil edilməsini müəyyən edən XII Levha Qanunları "yaşayış məskəni"nin qorunması və toxunulmazlığı ilə əlaqədar məsələləri birbaşa tənzimləməsə də, mənzil hüquqlarının təmini baxımından təsbit etmişdir. Zaman keçdikdə vətəndaşların hüquq və azadlıqlarının qorunması mexanizmləri və hədləri təkmilləşdirildi və "Yaşayış yeri"nin toxunulmazlığı eramızdan əvvəl 80-ci illərdə ilk dəfə olaraq hüquq kimi Roma dövlətində təsbit edildi. Eramızdan əvvəl I əsrin əvvəllərində anarxiya və özbaşınalıq hökm sürməkdə idi. Belə bir dövrdə Roma ordusunda general rütbəsində olan Lucius Cornelius Sulla Felix siyasi rəqiblərini məğlub edərək hakimiyyəti ələ keçirdi və özünü müddətsiz diktator elan etdi. Bundan sonra əsas vəzifəsi ölkədə əmin-amanlığın bərpası və bu məqsədlə müvafiq normativ aktların qəbul edilməsi idi. Eramızdan əvvəl 81-ci ildə vətəndaşlara fiziki və digər güc vasitələrindən istifadə etməklə təsiri, onları təhqir etməyi və yaşayış sahələrinə onların iradəsi ziddinə daxil olmağı qadağan edən lex Cornelia de Iniuris-dir [8, s. 133-137].

Orta əsrlərdə mənzil toxunulmazlığı ilə əlaqədar məsələlərə demək olar ki, birbaşa rast gəlmək mümkün deyil. Belə ki, erkən orta əsrlərdən (III-IV) XVIII əsrin axırlarınadək olan dövrdə istər Qərbdə, istərsə də Şərqdə yaradılmış dövlətlərin idarəetmə sistemi əsasən monarxiya olduğundan və totalitar rejimə əsaslandığından insanların hüquq və azadlıqlarından söhbət gedə bilməzdi.

Əvvəlcə Qərbi Avropada orta əsrlər dövründəki vəziyyətə baxaq. Hazırda Qərbi Avropada mövcud olan roman-german hüquq sistemi tarixən böyük inkişaf yolu keçmiş və nəticə etibarilə qədim roma hüququnda təsbit edilmiş qaydaların və bir çox ədəbiyyatlarda "cermen" adlanan, yəni almanlar tayfanın adı ilə cermen prinsiplərinin qarşılıqlı birləşməsi nəticəsində XV əsrdən etibarən Avropada yayılmağa başlamışdır. Cermenlər eramızdan əvvəl IV-III əsrlərdə qədim Roma dövlətinin sərhədlərində yaşayan və köçəri həyat tərzi keçirən tayfa olmuşdur. Sonradan güclənərək artıq Roma dövlətinə qarşı mübarizə aparmış, hətta bir sıra əraziləri ələ keçirə bilmişdirlər. Cermenler arasındakı münasibətlər adət hüquq normaları ilə tənzimlənmişdir. Həmin normalara əsasən, daşınar və daşınmaz əmlakın statusu və onlar üzərindəki hüquqlar bir-birindən fərqləndirdi. Orta əsrlərdə cermenlər neçə illik mübarizələrinin nəticəsi olaraq Qərbi Roma imperiyasının sükutundan sonra 486-cı ildə Frank dövlətini yaratdılar. Həmin dövlətdə cermen prinsipləri və onun cəmiyyətin idarəolunmasına münasibətdə müəyyən etdiyi normalar əsas rol oynamağa başladı. Xüsusən sözügedən dövrdə yaşayış sahəsi müqəddəs hesab edilməklə nəsildən nəslə keçir və onun toxunulmazlığı dövlətdə öz prioritetliyini qoruyurdu [4, s. 294-297, 299-302].

Bununla belə, Avropada ilk dəfə 23.05.1944-cü ildə Almaniya Federativ Respublikasının Konstitusiyasında I bölmədə əsas hüquqlar adlanan hissədə 13-cü maddədə mənzil toxunulmazlığı hüququna həsr edildi [6, s. 229].

Yuxarıda qeyd edilənlərə əsasən, Qərbdə yaşayış yerinin toxunulmazlığı ilə bağı məsələlər sadəcə praktiki olaraq şəxsi hüquqların tərkibi hesab edilməklə, onun qorunması və təqsirkarın cəzalandırılması ümumi hüquq münasibətləri çərçivəsində XX əsrin ortalarına kimi həyata keçirilmişdir. Yəni cinayət olduğu halda həmin pozuntunun olmasına baxmayaraq ki, əməlin predmeti yaşayış sahəsidir, "ev toxunulmazlığı"nın pozulması adı altında göstərilməmişdir. Yaxın Şərqdə isə bu kontekstdə məsələ fərqli istiqamətdə cərəyan etmiş, hətta sözügedən əməli və onun cəzasını birbaşa tənzimləyən müvafiq normativ sənədlər də mövcud olmuşdur. Belə ki, islam hüququnda yaşayış yerinin toxunulmazlığı hüququ şəxsi həyatın gizliliyi çərçivəsində tənzimlənməklə birbaşa olaraq dövlət və cəmiyyət arasındakı qarşılıqlı inam və etibarın möhkəmləndirilməsinə, insanların şəxsi həyatlarının və əmlakının qorunmasına və mülki dövriyyənin azadlığına təminat verir. Bundan əlavə, hər hansı şəxsin yaşadığı evə onun iradəsi olmadan daxil olma, hətta müşahidə aparmaq günah hesab edilməklə əməlin ağırlıq dərəcəsindən asılı olaraq müxtəlif cəzalar (maliyyə cəzası, əllərin kəsilməsi və s.) tətbiq edilirdi. Şəriət normaları şəxsiyyətin hüquqlarına xüsusi önəm verməklə onun qorunması məqsədilə zəruri müdafiə vasitələrinin tətbiqini mümkün edir [7, s. 2309 - 2310].

Bundan əlavə, şəriət normalarında şəxsi həyatın gizliliyi ilə bağlı ən açıq və birmənalı ifadə edilən məsələ "ev toxunulmazlığı"dır. Adıçəkilən müddəa islam hüququnun əsas mənbələrindən olan "Qurani-Kərim"də müxtəlif ayə və surələrdə fərqli formalarda ifadə edilmişdir. Məsələn, Bəqərə surəsinin 2/189 ayəsində "evlərə qapılarından daxil olun" əmri verilmiş və evlərə arxadan gizli girmək qadağan edilmişdir. Həmçinin islam alimləri "icazə başqasının malına sərəncam verməkdən başqa bir şey deyil" deyirlər və başqasının evinə icazəsiz girməyi şəxsi hüquqlarının pozulması kimi görürlər [3, s. 2].

Qədim və uzun tarixə malik Osmanlı dövlətində mənzil toxunulmazlığı ilə əlaqədar münasibətlər şəriət normalarının təsiri altında inkişaf etmişdir. Şəxsi mənafelərin həyata keçirilməsini və səmərəli müdafiəsini təmin edən hüquqlardan biri olan mənzil toxunulmazlığı Osmanlı hüquq tarixində öz inkişafı nəticəsində əsas təməl hüquq və azadlıqlardan biri hesab olunaraq müəyyən edilir ki, "ev"ə - insanın yaşadığı yerə zorla girilmir və "ev" hər cür hücumdan qorunur. Çünki mənzil toxunulmazlığı tək ev deyil, fərdlərə və dövlətə qarşı şəxsi azadlığın və müstəqilliyin ən yaxşı üzə çıxdığı yer kimi qəbul edilməklə cəmiyyət və dövlət münasibətlərinin qarşılıqlı təmin edilməsində mühüm rol oynayırdı. Mahiyyət etibarilə yaşayış yeri əldə edən şəxsin yaşayış yerində və yaşayış sahəsinə daxil olan yerlərdə öz iradəsinə uyğun hərəkət etmək azadlığı və bununla da şəxsi həyatının sirri qorunur. Müasir dövrdə mövcud nəzəriyyələrə yaxın olan bu yanaşma hələ orta əsrlər Osmanlı dövlətində formalaşmışdır.

Həmçinin türk hüquq tarixində uzun və çox mühüm bir dövr təşkil edən Osmanlı İmperiyası dövründə yaşayış sahəsinin toxunulmazlığı təkcə formal olaraq qorunmamış, hətta pozuntu halında cəza tətbiq edilmişdir. Mənzil toxunulmazlığına, XIX əsrdə Osmanlı imperiyasında dövlət xadimi İbrahim Edhem tərəfindən belə tərif verilmişdir: "Heç kəs istənilən fərdin yaşadığı yerə onun icazəsi və ya qanunun icazəsi olmadan daxil ola bilməz onun mənzili hər cür təcavüzdən və hücumlardan qorunur". İ.Edhem həmçinin yaşayış sahəsi toxunulmazlığının şəxsi toxunulmazlığın tələblərindən biri olduğunu, ev toxunulmazlığı olmayanların şəxsi toxunulmazlıqlarını tam dərk edə bilməyəcəyini vurğuladı. Sözügedən yanaşma Osmanlı alimlərinin və mütəfəkkirlərinin fikirlərində yaşayış sahəsinin insan həyatında, onun yaşamında necə böyük rol nümayiş etdirdiyini göstərir [7, s. 2307 - 2308].

İlk dəfə olaraq geniş formada mənzil toxunulmazlığı hüququ Osmanlı dövlətində 1876-cı ildə əsas Qanunun 22-ci maddəsində təsbit edilməklə - "Osmanlı İmperiyasında hər kəsin yaşayış yeri və ya sahəsi hücumdan qorunur. Heç kəs qanunla müəyyən edilmiş hallardan başqa heç bir səbəbdən zorla başqasının evinə daxil ola bilməz" ifadəsi ilə mənzil toxunulmazlığının konstitusion əhəmiyyətini təsbit etmişdir [7, s. 2312].

Məlum olduğu kimi, Şimali Asiyada və Şərqi Avropa yerləşən, ərazisinin böyüklüyünə görə dünyada birinci yerdə olan Rusiya Federasiyasının dövlət olaraq ilkin rüşeymlərinin qoyulması və inkişafı XV və XVI əsrlərə təsadüf edir. Uzun sürən müharibələrdən və zəfərlərdən sonra artıq XVIII və XIX əsrlərdə Rusiya təkcə Qafqazda deyil, eyni zamanda Avropada söz sahibi dövlətlərdən birinə çevrilmişdi. Baxmayaraq ki, 1900–1903-cü illər dünya iqtisadi böhranı Rusiyadan da yan keçmədi, XX əsrin əvvəllərində Rusiyada kapitalizmin inkişafı sürətlənmişdi. İlk siyasi partiyalar ictimai siyasi proseslərin dərinləşməsi ilə yaranmağa başladı. Nəhayət uzun sürən mübarizədən sonra, 29 dekabr 1922-ci ildə Rusiya Sovet Federativ Sosialist Respublikası, Ukrayna Sovet Sosialist Respublikası, Belorusiya Sovet Sosialist Respublikası və Zaqafqaziya Sovet Federativ Sosialist Respublikası (Azərbaycan SSR, Gürcüstan SSR və Ermənistan SSR) arasında Sovet Sosialist Respublikalar İttifaqının qurulması barədə saziş imzalandı. Bu saziş 30.12.1922-ci ildə Birinci Birlik Konqresi tərəfindən təsdiq edilmiş və səlahiyyətli şəxslər tərəfindən imzalanmışdır. Baxmayaraq ki, hökumət və nazirliklər 06.07.1923-cü ildə yaradılsa da, 30 dekabr SSRİ-nin formalaşması tarixidir [9, s. 31-34].

Mənzil toxunulmazlığı hüququnun Cənubi Qafqazda formalaşması və norma baxımından əsas qanunlarda təsbit edilməsi Sovet Sosialist Respublikaları İttifaqının (SSRİ) fəaliyyəti ilə əlaqədardır. Məlum olduğu kimi, SSRİ dünya ta-

rixində rəsmi ideologiyası marksizm-leninizm – sol radikal sosialist ideologiyası olan dövlət olmuşdur. Sosialist dövlət olmasına baxmayaraq, vətəndaşlara münasibətdə bir çox sosial-iqtisadi hüquqlar tanınmırdı. Məsələn, tətil etmək hüququ, lokaut, işsizlikdən sığorta və s. Sözügedən dövrdə mövcud rəsmi sənədlərə və aktlara nəzər yetirdikdə müəyyən etmək olur ki, 29 dekabr 1922-ci ilə qədər, yəni SSRİ yaradıldığı dövrə qədər yaşayış yerinin mühafizəsi və toxunulmazlığı ümumi olaraq ayrı-ayrı cəzalarla "mənzilin mühafizəsi" adı altında qorunmuş və ayrıca hüquq olaraq tanınmamışdır. SSRİ yaradıldıqdan sonra 1924-cü ildə qəbul edilmiş ilk Konstitusiyada da sosial-iqtisadi və şəxsi hüquqların verilməsinə münasibətdə də xeyli məhdudiyyətlər tətbiq edilmişdir. Lakin 1936-cı ildə SSRİ-nin yeni qəbul edilmiş Konstitusiyası sözügedən hüquqların təsbiti baxımından həmin dövr üçün olduqca unikaldır. Təsadüfi deyil ki, layihəni təqdim edərkən Stalin deyirdi ki, əsas Qanun, "gedilən yolu və əldə olunan nailiyyətləri ümumiləşdirir". Başqa sözlə desək, "Konstitusiya əslində əldə edilmiş və əldə edilmiş məqsədləri qeyd edib qanuna çevirməkdən başqa bir şey etməmişdir". İstər Rusiya FSR-in 1918-ci il tarixli, istərsə də SSRİ-nin 1924-cü il tarixli Konstitusiyalarında yer alan bəzi prinsiplər və müddəalar 1936-cı il Konstitusiyası ilə tamamilə aradan qaldırıldı, sosial-iqtisadi hüquqların daha geniş tərkibi yeni layihədə müəyyən edildi. Məsələn, mənzil toxunulmazlığı hüququ, seçki hüququnun "ümumi, birbaşa, bərabər və gizli səsvermə" vasitəsilə təmin edilməsi və s. [9, s. 49 - 51]

Qeyd etmək zəruridir ki, mənzil toxunulmazlığı hüququ ilk dəfə SSRİ-nin 1936-cı il tarixli Konstitusiyasında ayrıca norma olaraq təsbit edilmiş və şəxsi hüquqlar baxımından nəzərdən keçirilmişdir. Həmin Qanuna əsasən, Azərbaycan SSR-nin 1937-ci ildə qəbul edilmiş Konstitusiyasında vətəndaşların əsas hüquq və vəzifələrinin təsbit edildiyi XI fəsilin 135-ci maddəsində göstərilir ki, "vətəndaşların mənzilinin toxunulmazlığı və yazışma sirri qanunla qorunur" [10, s. 429].

Bundan əlavə, Azərbaycan SSR-in 1978-ci il tarixli Konstitusiyası SSRİ-nin 1977-ci il Konstitusiyası əsasında qəbul edilmişdir və 1978-ci il tarixli əsas Qanunun Azərbaycan SSR-i vətəndaşlarının əsas hüquqları, vəzifələri və azadlıqları adlanan VI fəslinin 53-cü maddəsinə əsasən, "Azərbaycan SSR-i vətəndaşlarına mənzil toxunulmazlığı üçün təminat verilir. Qanuni əsas olmadan, heç kəsin mənzildə yaşayan şəxsin iradəsi ziddinə mənzilə girmək ixtiyarı yoxdur". Qeyd edilən mətn hazırda qüvvədə olan Azərbaycan Respublikası Konstitusiyasında mənzil toxunulmazlığı ilə əlaqədar təsbit edilmiş maddənin mətninə oxşardır [11, s. 12].

Məlumdur ki, müasir beynəlxalq münasibətlərin əsası 1648-ci ildə imzalanmış Vestfaliya Sülh Müqaviləsi ilə qoyulmuşdur. Vestfaliya sülh müqaviləsi "milli dövlət suverenliyi" prinsipini əsas hüquq kimi tanıdı. Bu dövrdən etibarən dövlətlər beynəlxalq münasibətlərdə əsas oyunçu rolunu öz üzərinə götürdülər. Halbuki qeyd edilən müqavilənin imzalanmasından cəmi üç əsr tamam olmadan I və II Dünya müharibələrinin baş verməsi beynəlxalq sferada mövcud münasibətlərin kövrəkliyindən xəbər verirdi. Bu səbəbdən beynəlxalq hüquq sisteminin təkmilləşdirilməsi və yeni institutların yaradılması, hüquq və azadlıqların klassifikasiyası və yeni möhkəm hüquq beynəlxalq hüquq müdafiə sisteminin qurulması zəruri idi. Bu səbəbdən artıq II Dünya müharibəsindən sonra bir sıra yeni beynəlxalq normativ aktlar qəbul edilməyə və yeni sazişlər imzalanmağa başlandı. Həmin normativ sənədlər içərisində əsas şəxsi hüquq və azadlıqların tərkib hissəsi olan "mənzil toxunulmazlığı" hüququ da öz yerini tapdı.

Beynəlxalq hüquqda mənzil toxunulmazlığının normativ aktlarda təsbit edilməsi XX əsrin ortalarına təsadüf edir. 1948-ci il tarixli Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 12-ci maddəsində deyilir: "Heç kimin şəxsi və ailə həyatına özbaşınalıqla müdaxilə, evinin toxunulmazlığına, gizli məktublaşmalarına, şərəf və nüfuzuna özbaşınalıqla qəsd edilə bilməz. Hər bir insan bu cür müdaxilələrdən və ya belə qəsdlərdən qanunla müdafiə olunmaq hüququna malikdir". Maddənin mətnindən aydın göründüyü kimi, burada dövlətlər həm şəxslərin toxunulmazlığını, həm də mümkün pozuntulara qarşı hüquqi müdafiəni təmin etməyə borcludurlar.

Avropa İnsan Hüquqları Konvensiyasının "Şəxsi və ailə həyatının mühafizəsi" adlı 8-ci maddəsində təsbit edilir: "Hər kəs öz şəxsi və ailə həyatına, evinə və yazışma sirrinə hörmət hüququna malikdir. Milli təhlükəsizlik, ictimai asayiş və ölkənin iqtisadi rifah maraqları naminə, iğtişaş və ya cinayətin qarşısını almaq üçün, sağlamlığı, yaxud mənəviyyatı qorumaq üçün və ya digər şəxslərin hüquq və azadlıqlarını müdafiə etmək üçün qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olan hallar istisna olmaqla, bu hüququn həyata keçirilməsinə dövlət hakimiyyəti orqanları tərəfindən müdaxiləyə yol verilmir". Bu maddə ilə mənzil toxunulmazlığı Ümumdünya İnsan Hüquqları Bəyannaməsindən sonra ən mühüm varis sənəd olan Avropa İnsan Hüquqları Konvensiyasında tanınmaqla təmin edilib və Ümumdünya İnsan Hüquqları Bəyannaməsindən fərqli olaraq, hansı hallarda vətəndaşların mənzil hüquqlarının müdafiəsi ilə bağlı tələblər müəyyən edilib. Həmçinin sözügedən maddədə hüququn nə dərəcədə və hansı şəraitdə və demokratik şəkildə məhdudlaşdırıla biləcəyi, cəmiyyətdə məhdudlaşdırıla bilən məhdudiyyətin meyarları belə izah edilib [3, s. 227-229].

Birləşmiş Millətlər Təşkilatının Mülki və Siyasi Hüquqlar haqqında Paktının 17-ci maddəsi "ev toxunulmazlığı" haqqındadır və maddənin mətni belədir: "Heç kimin şəxsi və ailə həyatına özbaşınalıqla və yaxud qeyri-qanuni müdaxilə, onun evinin toxunulmazlığına və məktublaşmalarının gizliliyinə özbaşınalıqla və ya qeyri-qanuni qəsd və ya onun ləyaqəti və nüfuzuna qeyri-qanuni qəsd edilə bilməz. Hər bir insan belə müdaxilə və belə qəsdlərdən qanunla qorunmaq hüququna malikdir". Qeyd edək ki, Konvensiya Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən 16 dekabr 1966-cı il tarixli, 2200A (XXI) saylı qətnamə ilə qəbul edilmişdir [2].

Azərbaycan Respublikasının mövcud qanunvericilik sistemi beynəlxalq hüquqa əsaslanır və Azərbaycan Respublikası Konstitusiyasında şəxsi toxunulmazlıq hüququnun tərkib hissəsi olan mənzil toxunulmazlığı ayrıca hüquq olaraq təsbit edilir. Belə ki, Azərbaycan Respublikası Konstitusiyasının 33-cü maddəsinə əsasən, "hər kəsin mənzil toxunulmazlığı hüququ vardır. Qanunla müəyyən edilmiş hallar və ya məhkəmə qərarı istisna olmaqla, mənzildə yaşayanların iradəsi ziddinə heç kəs mənzilə daxil ola bilməz". Bu faktın mövcudluğu qanunvericinin kapitalist cəmiyyətinin əsaslarından olan mülkiyyət münasibətlərinə və mənzil hüquqlarının qorunmasına, eləcə də azad mülki dövriyyənin təmin edilməsinə necə yüksək dəyər verməsinin göstəricisidir.

Yuxarıda qeyd edilənləri nəzərə alsaq, "mənzil" anlayışının konkretləşdirilməsinə, düzgün izahına və təfsirinə ehtiyac var. Fikrimizcə, bir sıra qanunvericilik aktlarında aidiyyəti üzrə "mənzil"ə, "yaşayış sahəsi"nə, "fərdi yaşayış evi"nə və digər əlaqəli ifadələrə tərif verilsə də, ümumilikdə mənzilin yaşayış sahəsi olduğunu nəzərə alsaq, əsas Qanun daxil olmaqla, digər aktlarda da "mənzil toxunulmazlığı" deyil, "yaşayış sahəsi"nin toxunulmazlığının qeyd edilməsi məqsədəmüvafiq olar.

Həmçinin mənzil toxunulmazlığının hüququnun Azərbaycanda inkişaf tarixi ilə bağlı məlumat, tədqiqat işləri və araşdırma olduqca az olduğundan gələcəkdə bu sahənin tədqiq edilməsi universitet tələbələrinə və digər araşdırmaçı şəxslərə tövsiyə edilməlidir.

**İstifadə edilmiş ədəbiyyat:**

1. Azərbaycan Respublikasının Konstitusiyası // 12 noyabr 1995-ci ildə qəbul edilmişdir (24 avqust 2016-ci il tarixdə olan dəyişiklik və əlavələr). – Bakı: Qanun, 2016, 96 s.
2. Birləşmiş Millətlər Təşkilatının Mülki və Siyasi Hüquqlar haqqında Paktı// BMT-nin Baş Məclisinin 16 dekabr 1966-cı il tarixli 2200-cu A (XXI) nömrəli Qətnaməsi ilə qəbul edilib. URL:https://migration.gov.az/content/pdf/5acb034968016_M%C3%BClki%20v%C9%99%20siyasi%20h%C3%BCquqlar%20haqq%C4%B1nda%20Pakt.pdf
3. Armağan S., İslâm hukukunda özel hayatın gizliliği (Mahfuziyet'i), - İstanbul: İslâm Tetkikleri Enstitüsü Dergisi, C. IV, 1976, № 3-4, 13 s.

4. Doc., Dr., Coşkun U. Alman hukukunun tarihi gelişimine bir bakış/ -Ankara: Dergi Park Academic, Hukuk yayınları, 2018, № 3, 292-321 s.
5. Əsgərov Z.A. Konstitusiya hüququ. Dərslik. Bakı: Bakı Universiteti nəşriyyatı, 2011, 760 s.
6. Olcay S. Konut dokunulmazlığı hakkı ve konut dokunulmazlığının ihlali suçu// İstanbul Medipol Universitesi Hukuk Fakültesi Dergisi, Bahar - 2019, № 6(1), s. 225-263.
7. Esirgen, S.Ö. Osmanlı hukununda konut dokunulmazlığı ihlal suçu / - Ankara: Ankara Üniversitesi, Hukuk Fakültesi Dergisi, 2016, № 65 (4), 2305 - 2329 s.
8. Tarhan A. Roma hukukunda iniuria/ özel hukuk anabilim dalı üzre yüksek lisans tezi/ - Ankara -2019, 158 s.
9. Tiryaki M. Rusya federasyonu Anayasası'nda sosyal hakların gelişimi/ çalışma ekonomisi ve endüstri ilişkileri anabilim dalı üzre yüksük lisans tezi/ İstanbul, 2016, 111 s.
10. Azərbaycan SSR-in 1937-ci il Konstitusiyası. Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1965. 30 s.
11. Azərbaycan SSR-in 1978-ci il Konstitusiyası. Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1978. 64 s.

**Мирза МАМЕДОВ**

## ИСТОРИЧЕСКОЕ РАЗВИТИЕ ПРАВООТНОШЕНИЙ, СВЯЗАННЫХ С НЕПРИКОСНОВЕННОСТЬЮ ЖИЛИЩА

### РЕЗЮМЕ

В статье изучено историческое развитие отношений по поводу неприкосновенности жилища, его особенности и проблемы в разные периоды, а в конце сделаны предложения по развитию соответствующей сферы и определению жилища, а также общая ситуация. был изучен. В ходе исследования были подробно проанализированы отношения о неприкосновенности жилища с древнейших времен до современности, включены нормативные системы и правила соответствующих государств в этой области, а также отношения, возникающие в этом направлении, связанные с теоретически осмыслены защита интересов государства, физических и юридических лиц. Также были проанализированы составные элементы упомянутых в теме отношений с соответствующими законодательными актами и теоретическими подходами, показаны тенденции современной эпохи.

***Ключевые слова:*** Конституция Азербайджанской Республики, право на неприкосновенность жилища, жилой площади, экономические отношения, защиту личной и семейной жизни.

**Mirza MAMEDOV**

## HISTORICAL DEVELOPMENT OF LEGAL RELATIONS RELATED TO THE INVIOLABILITY OF HOME

### SUMMARY

The article examines the basis of the crime of registration of illegal transactions related to land, its characteristics and its difference from administrative liability, and the general situation of crimes in the mentioned field in modern times. During the research, according to the theoretical classification of the registration of illegal transactions, the criminal composition established in the criminal law, as well as the relationships arising in relation to the protection of the interests of the state, individuals and legal entities related to the implementation of the registration of illegal transactions related to land, were theoretically interpreted. Also, in the topic, the constituent elements of the mentioned crime were analyzed with the related legislative acts and theoretical approaches, and the steps taken in the direction of prevention of this type of crime in modern times were shown.

***Key words:*** The Constitution of the Republic of Azerbaijan, the right to inviolability of housing, residential area, economic relations, protection of personal and family life